**Günel Ramiz qızı Quliyeva** [52]

# SEYİD ƏZİM ŞİRVANİNİN DİNİ-FƏLSƏFİ GÖRÜŞLƏRİ

**Giriş.** Klassik Azərbaycan şeirində xüsusi mərhələ təşkil edən, "ənənəvi poeziyanı yeni üsluba gətirən" Seyid Əzim Şirvani uzun zaman Azərbaycan oxucusuna az qala qatı ateist, dinə nifrət edən şəxs, antiislam əqidəsində olan şair kimi təqdim edilmişdir. Bu məsələdə əsasən onun satirik şeirləri, mənzumələri, ayrı-ayrı dindarlar haqqında yazdığı həcvlər, taziyanələr nümunə göstərilmiş, mətndən çıxarılmış beytlər və misralar təsdiqedici fakt kimi ortaya gətirilmişdir. Şairin "Hacı və molla əhvalatı", "Köpəyə ehsan", "Qarınqulu abid", "Dəli şeytan", "Qazi saqqalını yandırır", "Bəlx qazisi və xarrat" və s. kimi əsərlərində tənqid hədəfi olan "din xadimləri" islamla, Azərbaycan xalqının mənəvi həyatında xüsusi dəyər qazanmış dini doktrina ilə bərabərləşdirilmiş, dini əlində vasitə edən şəxslərin tamahkarlığı, acgözlüyü, riyakarlığı, yaltaqlığı bütünlüklə islama şamil edilmişdir. Seyid Əzimin dinə münasibətini müəyyənlşdirmək bizdən dinlə, konkret "din xadimləri" arasındakı sərhədi müəyyənləşdirməyi tələb edir. Əvvəla onu qeyd edək ki, Seyid Əzim Şirvani dövrün ziyalılarının, xüsusilə də, "M.F.Axundovun maarifçilik və islahatçılıq ideyalarının və fikirlərinin alovlu davamçısı" və müdafiəçisi olsa da, dinə münasibətdə ondan fərqli mövqedə dayanmışdır [7]. M.F.Axundov bütövlükdə islama münasibətdə prinsipial ateist kimi çıxış etmiş, dinin heç bir postulatını qəbul etməmiş, onu "puç və əfsanə" saymış və ona qarşı mübarizə aparmışdır. Seyid Əzim Şirvani isə əksinə, islama ehtiramla yanaşır, tövhidə inanır, peyğəmbərləri vəsf edir, dinin vacib əməllərini yerinə yetirir, məsciddə ibadət edir, poeziyasının bədii elementlərinin böyük əksəriyyətini dindən götürür, mərsiyə və növhələr yazmaqla islama xidmət etdiyini düşünür və s. Onun dinə qarşı "düşmənçiliyi" isə konkret şəxslərdən keçir; islam libası geyinmiş fırıldaqçılar, dini alver predmetinə çevirən, "köpəyi özlərindən biri hesab edən" və adını ruhani qoyan şəxslər onun hədəfindədir.

**Əsas hissə.** Ümumiyyətlə, onun satirik şeirlərini, mənzum hekayələrini, həcvlərini, epistolyar yazışmalarını və s. bir kənara qoysaq, yerdə qalan bütün əsərlərində dinin başlıca xətt olduğunu, Allaha, onun peyğəmbərinə, dinin böyük şəxsiyyətlərinə şairin dərin məhəbbət bəslənildiyini görəcəyik. Onu da qeyd etməliyik ki, Seyid Əzim yaradıcılıq aləminə lirik şair kimi gəlmişdir. O, ədəbi fəaliyyətinin sonrakı mərhələlərində müxtəlif janrlara və rəngarəng mövzulara müraciət etsə də, lirika onun həmişə məşğul olduğu sahə olaraq qalmışdır. O, klassik şeirin qəzəl, qəsidə, qitə, müxəmməs, müsəddəs, müstəzad, tərkibənd, rübai formalarında zəngin poetik irs yaratmışdır [1, s. 176].

Şairin lirik şeirlərində tərənnüm və vəsf etdiyi eşqin alt qatında bir sufi eşqi boylanır. Zaman-zaman Seyid Əzim yaradıcılığını tədqiq edənlərin böyük əksəriyyəti bu qatı görməzlikdən gəlmiş, onun əsərlərindəki eşq məsələsinə birtərəfli yanaşılaraq orada real, həyati məhəbbət axtarılıb, "ətə, qana susamış" bir aşiqin eşqindən danışılmışdır. Halbuki şair özü də poeziyasındakı bu eşqi "həqiqi" və "məcazi" adı ilə iki yerə bölmüş, "İnsanın xilqəti, həqiqi və məcazi eşq haqqında" adlı tərkibənddə onların dini-fəlsəfi mahiyyəti, xarakterik xüsusiyyətləri barədə ətraflı danışmışdır [4, s. 699].

Seyid Əzimin real eşq şeirlərinin bir çoxunun konkret ünvanı, məşuqənin adı var, şair bəzi hallarda hətta sevdiyi obyektin yaşadığı, şəhər, küçə, ev barədə də məlumat verir. Bu qəhrəmanlar xəyali obrazlar deyil, şairin müasirləridir. Şair bir qəzəlində yazır:

Saradır adın, ikki saçın ənbəri-sara,
Saçın kimi aləmdə sənin mişki-tər olmaz [4, s. 150].

Yaxud,

Cümleyi-rövzeyi-rizvanda tanılmaz belə gül,
Güli xoşrayhədir, çünki bu Qazyan gülüdür.
Bu güli-xilqəti-xaliqdə lətafət çoxdur,
Sanma kim, bu güli-xoşrayihə Salyan gülidür [4, s. 166].

Şair tərənnüm etdiyi obyekti həyatdan ayırmır, öz üslubuna xas olaraq onu dini epitetlərlə tərənnüm etməklə bərabər, həm də Azərbaycan təbiətinin gözəllikləri içərisində vəsf edir, onu doğma Qazyanın bahar çiçəyinə bənzədir. Lakin irəlidə qeyd etdiyimiz kimi, Seyid Əzimin lirikasının böyük hissəsini onun sufiyanə şeirlər, ustad Füzulinin məhvəri çərçivəsində yaranan platonik eşq nəğmələri təşkil edir. Bu eşq yeri, göyü, kainatı, məxluqatı yaratmış, əzəli və əbədi olan, heç kəsə möhtac olmayan Allaha yönəlmişdir, hər şey-təbiət, kainat-onun hikmətinin məhsuludur. Kim bu eşqə vaqif olursa, həqiqəti tapır.

O, dəfələrlə bu eşqin "Məkkədə Məhəmmədi ərşaşina edən, Tur ağacından nida verən, gədanı sultana çevirən" bir eşq olduğunu vurğulayıb və bu eşqə mübtəla olanları bəxtəvər adlandırıb:

Xah Musa damənin tut, xah İsa, ey fəta,
Tərk qıl fironi-nəfsi, eşqə eylə iqtida.
Eşqdir ol qüvveyi-cazib ki, xaki Məkkədən,
Etdi cismi-ünsüriyyi-Əhmədi ərşaşina.
Eşqdir kim ki, edər vadiyyi-eyməndən xüruş,
Eşqdir kim ki, dirəxti-Turdən eylər nida.
Ol gədayi-eşq, sultanlıq muradındır əgər



[52] AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun dissertantı ORCİD: 0009-0004-5772-5560. e-mail: gunelramizqizi90@gmail.com

Kim diyari-eşqdə afaqə sultandır gəda [4, s. 40].
Göründüyü kimi, şair "nəfsə arxa çevirib, eşqə iqtida edildiyi" halda, insanın Allaha yaxınlaşdığını, "sultanlıq muradı olan şəxsin diyari-eşqdə" arzusuna yetə biləcəyini xüsusi vurğulayır, bunun üçün ən asan yol canı tərk etməkdir, amma bu tərki-vücud, yəni ölüm deyil.
Kuyi-canana yetişməksə müradın, Seyid,
Tərki-can eyləmək ol mənzilin asan yoludur.
Şairin islami dəyərlərə münasibətinə gəlincə isə, bu dəyərlər bədii-estetik planda onun şeirlərinin həm alt qatını, həm də bütövlükdə estetikasını yaradır. Seyid Əzim Şirvaninin şeirlərini diqqətlə təhlil etdikdə görürük ki, onun istər lirik, istər ictimai-siyasi, istərsə də mənzum hekayələrinin əsas bədii ifadə vasitələri dini fiqurlar, istilahlar və obrazlardır: dini şəxsiyyətlər, dini məkanlar, dini dəyərlər şairin təşbehlərinin, metaforalarının, bədii obrazlarının əsasında dayanır. Şair müstəzadlarının birini belə yekunlaşdırır:
Ey gül, sən özün Kəbeyi-ərbabi-səfasan
Həm nuri-xudasan.
Xali siyahındır Həcərül-əsvətə həmta
Ey mayeyi-sevda [4, s. 724].
Şair məşuqəsini səfa insanlarının Kəbəsinə, onun xalını isə "həcərül-əsvata" ("qara daşa") bənzədir. Şeiri real eşq prizmasından da, məcazi eşq müstəvisində də təhlil etmək mümkündür. Lakin bir çox elementlər şairin peyğəmbəri nəzərdə tutduğunu söyləməyə imkan verir. "Üzün əhli-nəzər üçün Kəbə olması", "ayağın yasəmən yarpağı tək rikaba (üzəngiyə) qoyulması" şeirin alt qatının daha dərin olduğunu göstərir. Şairin demək olar ki, əksər lirik şeirlərində bədii obrazların təşbihi, metaforası dindir. Məsələn, şair qəzəllərinin birində deyir:
Həcər ol xal, üzün Kəbə, qarə örtügü zülfün,
Qoyub səni, niyə hüccaclər Hicazə gedərlər?
... Xalın oxşar Həcərə, Zəmzəmə çahi-zənəxin,
Yeri vardır desələr qibleyi-İslam sənə [3, s. 155].
Təşbehə baxaq, gözəlin üzündəki xal Kəbədəki qara daşa, gözəlin üzü Kəbə evinə, üzündəki örtük Kəbə örtüyünə bənzədilir və sonda şair oxucuya bədii sualla müraciət etməklə həccə gedənlərin belə gözəli qoyub, niyə Hicazə getdiklərinə təəccübünü bildirir. Təbii ki, insan sevdiyini, gözəl sandığını onun üçün müqəddəs saydığı ilə müqayisə edər, gözəl, daha gözəl üçün, yaxşı, daha yaxşı üçün miqyasdır. Digər tərəfdən, insan Allahın yaratdığı ən mükəmməl varlıqdır, Yer üzünün əşrəfidir, Allah insanı yaratması ilə qürur duymuşdur. Seyid Əzim Şirvani insanı müqəddəsləşdirir və eyni zamanda müqəddəs olanın gözəlliyindən heyrətə gəlir. Şair başqa bir qəzəlində deyir:
Sureyi-Vəlleyl zülfündür, yüzün Vəşşəmsdir,
Qəm degil aləmdə bundan qeyri-Quran olmasa [4, s. 48].
Bu beyt haqqında vaxtilə professor Xeyrulla Məmmədov yazırdı: "Onun (Seyid Əzim Şirvaninin) nəzərində ən yaxşı ibadət gözələ və gözəlliyə səcdə etməkdən ibarətdir. O, gözələ məxsus nişanələri dini atributlara qarşı qoyur"[1, s. 180]. Bizcə, şair gözəli dini atributlara qarşı qoymur, əksinə, onlar bir-birini tamamlayır, dini atribut gözəlliyin epiteti kimi insanın ilahi simasını formalaşdırır. Sonradan Seyid Əzim Şirvani daha irəli gedərək insan gözəlliyini Quranın ayrı-ayrı surələri üçün epitetə çevirir və onu vəsf edir: gözəlin zülfü "Vəlleyl" (zülmət gecə) surəsi, üzü "Vəşşəms"dir (günəş). Beytin ikinci misrasını şairin Qurana münasibəti kimi yozaraq onu əqidəsizlikdə günahlandıranların əksinə olaraq, həmin misrada insana hürufi yanaşmasını biz daha çox hiss edirik. İnsanın sifətində ilahi cizgilərin təcəllası "ənəlhəqq"ə gətirib çıxarmışsa, deməli, həmin sifətdə Quranı da görmək olar. Seyid Əzim məhz bu mənada insan sifətini Quran hesab edir və "qeyri-Qurana" ehtiyac qalmadığını bildirir.
Yeri gəlmişkən, Seyid Əzim Şirvaninin başqa bir qəzəlində "Vəlleyl", "Vəşşəms" kimi surələrin adları peyğəmbərlə bağlı işlənir, həmin epitetlər vasitəsilə peyğəmbərin obrazı yaradılır. Doğrudur, haqqında danışılan qəzəlin heç bir yerində Allahın son nəbisinin adı çəkilmir, lakin ona aid sifətlər metaforalar vasitəsilə konkretləşir, söhbətin kimdən getdiyini oxucu başa düşür. Həmin qəzəldə deyilir: "Onun saçının tükü "Vəlleyl"i (yəni gecəni) gətirir, onun "Vəşşəms" (günəş) üzü zərrələri yaradıb, o, insanların mürşidi, Allahı seyr edəndir, Cəbrayıl əsra gecəsi onun yol yoldaşı ola bilmədi, ey mah, gündüz heç vaxt gecə olmur, lakin onun saçı gündüzü "yelda" gecəsi etdi. Sən cövhərsən, ərəz aləmdir, sən əslsən, adəm tüfeyldir, sən sonun və başlanğıcın səbəbisən, sən səbəbin səbəbisən, sən yaranışın baisisən, sən iradənin gözüsən, sən aləmə mövlasan..." Bu sətirlərdən biz kimdən söhbət getdiyini yəqinləşdiririk, şair hətta özündə onu vəsf etmək cəsarəti görmür, sadəcə səmimiyyətini izhar etdiyini düşünür.
Ey tari-səri zülfün "vəlleyli iza yəğşa",
Vəşşəms yüzün vəsfin zərratə qılıb inşa.
Ey mürşidi-nasuti, vey sayiri-lahuti
Kim olmadı həmseyrin Cibril şəbi-əsra.
Gün olsa gecə olmaz, ey mah nədir vəchi,
Yəldayi-səri-zülfün gün üzdə olub peyda.
Sən cövhər, ərəz aləm, sən əsl, tüfeyl adəm,
Həm illəti ğaisən, həm illətsən məbda.
Seyyid nəçidir etsin övsaf səni, ey şəh,
İzhari xülusiyyət eylər sənə ol şeyda [4, s. 39].

“Seyid Əzimin İslam dininə, İslam fəlsəfəsinə bağlılığı daha çox özünü Qurana, Məhəmməd Peyğəmbərə (s.), Həzrət Əliyə (ə), İmam Hüseynə və Əhli-beytə olan sevgisində büruzə vermişdir” [6]. Bu çoxşaxəli sevgi çoxsaylı epitet və təlmihlərlə ifadə olunmaqla bədii mətnin alt qatındakı humanist–bəşəri dəyərlərin formalaşmasına, insanın mənəvi kamilləşməsinə, əxlaqi-tərbiyəvi məsələlərin cəmiyyətdə möhkəmlənməsinə xidmət edir. Allah-təala insanların kamilləşməsi üçün nümunə olaraq Əhmədi Mürsəli, onu yaratmaq üçün isə külli aləmi yaratmışdır.

Əgər mənzuri-çeşmin olmasaydı, Əhmədi mürsəl,
Bu abü tab ilə olmazdı, ərzü asiman peyda [4, s. 48].

Seyid Əzim əhli-beytə qarşı münasibətində də həssasdır, o, Həzrəti Əlini islamda xüsusi bir yol kimi qəbul edir, dünyaya onun fəlsəfəsindən baxmağa çalışır, onun kimi dünyanı müvəqqəti ev sanır və bu “miskin ev”dən daim şikayət edir. Şair Həzrəti Əlinin peyğəmbərlə bir zatdan olduğunu da diqqətə çatdırır.

Zati-Məhəmməd zati Əlidir,
İki bədəndə bir bil o cani.
Əlidir caili-ərzü səmavat,
Əli xəllaqi-yeksər masəvadır.
O əldən tinəti-Adəm müxəmmər,
O yüzdən mahi-gərdün biziyadır.
Əlidəndir vücudi-küll mövcud,
Əli bənna, Əli dəhrə binadır [5, s. 83-84].

Bütün bunlardan sonra sual doğur, bəs Seyid Əzim Şirvani nəyə görə uzun müddət dinsiz, az qala ateist kimi təqdim edilmiş və cəzalanmışdır. Təbii ki, bu məsələdə ilk olaraq, onun həcv etdiyi şəxslər xüsusi rol oynamışlar. İkincisi, cahil sünni mühitində Seyid Əzimin şiə mövqeyi, mərsiyə və növhələri əsrdaşlarını narahat etmiş və ona qarşı qəzəb və nifrətə səbəb olmuşdur. Ən nəhayət, sovet ideoloji maşınına ateist şair lazım idi. Ona görə onun satiralarını və mənzum hekayələrini əsas götürərək şairi ittiham etmişlər. Halbuki Seyid Əzim özü islamdan, din adından sui-istifadə edənləri qamçılayır, onların əsl simasını xalqa göstərməyə çalışırdı. Hətta bəzən Seyid Əzim din pərdəsi altında məqsədli şəkildə islama qarşı təbliğat aparanlara o qədər qəzəblənir ki, obrazlı deyimləri, bədii ifadə vasitələrini bir kənara qoyaraq onları birbaşa hədəfə alır, onların iç üzünü açmaqdan ötəri ən sərt ifadələr işlətməkdən belə çəkinmir. Onun Kərbəla faciəsini törədənlərə qarşı süngüdən də iti olan qələmindən süzülən şeirləri bu mənada ən qiymətli satira nümunəsi sayıla bilər. “Quba təziyədarları və xeyməni qarət edənlərə” adlı şeirinin ən aktual cəhəti onun tarixi hadisəni nəzmə çəkməklə kifayətlənməyərək, həm də müasr dövrün problemlərini özündə ehtiva etməsindədir. Kərbəla faciəsini törədənlər, günahsız insanları qətlə yetirənlər, xeymələri qarət edənlər, ümumiyyətlə, islama bidət gətirənlər Allahın divanına çəkilmiş və cəzalarını almış şəxslərdir. Şair də onları lənətləyir:

Ey badis edən dəhrdə büdət, köpək oğlu,
Etdiz nə səbəb xeyməni qarət, köpək oğlu.
Yoxsa əlivüz çıxmış idi Kərbübəladan
Düşdü ələ dövranda bu fürsət, köpək oğlu.
Qarət elədin xeyməgahi-ali rəsulu,
Gör olmusuz axır nəyə nisbət, köpək oğlu [5, s. 31].

Seyid Əzimi dinə qarşı olmaqda ittiham edənlərə, fikrimizcə, onun bircə bu şeiri tutarlı cavab sayıla bilər. Amma şair bu şeirdə fikrini heç də tarixi hadisəni sadəcə xatırlamaqla yekunlaşdırmır, o, Aşurə günlərində müsəlmanların “baş yarmalarını”, “ox atmalarını”, “kəfən geyinib küçələrə çıxmalarını”, “başqa millətləri özlərinə güldürmələrini” cahillik sayır, bunu mərifətlə etməyi, islam qaydalarına uyğun şəkildə həyata keçirməyi vacib bilir. O, dövranın dəyişdiyini, minillik adətlə Aşurə qeyd eləməyin vaxtının çoxdan keçdiyini bildirir.

Amma ki, bu iş mərifət ilə ola xoşdur,
Biganə bizə etməyə töhmət, köpək oğlu.
Gözlər açılıb, iş dəyişib, haldır özgə,
Ancaq bizi tutmuş bu cəhalət, köpək oğlu [5, s. 32].

Seyid Əzim Şirvaninin şeirlərində bədii-estetik dəyərlər təkcə islam elementləri və atributları ilə formalaşmır, burada biz xristianlığın, iudaizmin, hətta zərdüştiliyin, hinduizmin elementlərinə də tez-tez rast gəlirik. Təktanrılı dinlər, məzhəblər arasında fərq olsa da, tanrının bir olduğunu, peyğəmbərlərin bir-birini tamamladığını, missiyalarının insanlar içində insanlıq oyatmaqdan ibarət olduğunu qəbul edir və hər birinə ehtiram göstərir.

Xah boq, xah tanrı, xah xuda,
Birdi mənada, ey düri-yekta.

Yaxud,

Var bizim dörd kitabımız, ari,
Hər biri bir lisan ilə cari.
Biri Tövrət idi giranmayə,
Gəldi ibri dilində Musayə.
Biri İncil idi, birisi Zəbur,
Hər biri bir lisan ilə məşhur.
Çün Məhəmməd ərəbdən etdi zühur,

Öz lisanında qıldı həq məmur.
Türkdən göndərəydi gər anı
Türki dilində olurdu Quranı [5, s. 129].

Seyid Əzimin şeirlərində təktanrılı olmayan dinlərə də hörmət və ehtiram göstərilir. Bu sırada biz Zərdüştiliyi, Buddizmi, Hinduizmi və s. göstərə bilərik. Onun şeirlərində "piri-muğan" (Biz çakəri-ol piri–muğanik ki, şərəfdən, Xaki-qədimi dideyi-xurşidə ziyaddır, "müğbeçə" ("Gər verəydi mənə ol müğbeçə bir cam füqa", "afitaba səcdə" ("Necə ki, səcdə edər hindu afitab görüb" (4, s. 76), "hindubeçə" (Bu o hindubeçədir məktəbə Quran aparır (4, s. 210), "meyxanə" (Hanı ol guşeyi-meyxanədə şad olduğum günlər), "meykədə" (Sondu mənə piri-meykədə cami-səbuh, "Zənd", "Pazənd" (Get Zənd ilə Pazənd oxu, Qurandan, "atəşkədə" (Oldu atəşgədəyi-qüssə dili suzanım) kimi zərdüştiliyə, hinduizmə məxsus ifadələrə və istilahlara geniş yer verilmişdir. Hətta bütpərəstliyə aid fiqurların da adı çəkilir: Lat və Üzza (Yədi-qüdrətlə edib Lat ilə Üzzanı şikəst. Keçibən eşqi –məcazini həqiqət tapdım). Bu Seyid Əzimin öz dövrünü nə qədər qabaqladığını, hətta XX əsrin 60-cı illərində dövlət siyasətinə çevriləcək multikulturalizm və tolerantlığı XIX əsrdə təbliğ etməyə başladığını göstərir. Şair özü şiə təriqətinə məxsus olsa da, sünniliyə də böyük ehtiram göstərmişdir.

Doğrudur, vaxtilə Şam, Nəcəf kimi şəhərlərdə təhsil almış, Məkkədə həcc ziyarətində olmuş Seyid Əzim Şirvani islam aləminin geri qaldığını, acınacaqlı vəziyyətdə yaşadığını da görür, bunun səbəbərini araşdırıraraq nəticə çıxarmağa çalışırdı. Şair bunun səbəbini islam aləminin bir-birinə qarşı antoqonist mövqedə olan məzhəblərə, təriqətlərə, cərəyanlara bölünməsində görür və oğlu Mircəfərə müraciətlə yazdığı, əslində isə bütün gəncliyə ünvanladığı "Oğluma nəsihət" şeirində açıqlayırdı:
Şiəmiz sünniyə edər töhmət,
Sünnimiz şiədən edər qeybət,
Bizi puç etdi şiə sünni sözü,
Əhli-islamın oldu kor gözü.

Bu misralar yüksək dəyər kimi Əhmədi-Müsəl tərəfindən müsəlmanlara göndərilmiş dinimizdəki çatlara görə şairin necə həyəcan keçirdiyini bir daha təsdiq edir, o, müsəlman aləmini inkişaf etmiş Avropa kimi görmək istəyirdi.

**Nəticə.** Yekun olaraq belə qənaətə gəlmək olar ki, şairi qəzəbləndirən, əsəblərini tarıma çəkən din deyil, dindən sui-istifadə edərək xalqın tərəqqisinə, mənəvi-mədəni inkişafına mane olan harınlaşmış ruhanilər, şeyxülislamlar, kələkbaz seyidlər və din xadimləridir. Seyid Əzim Şirvani allahın təkliyinə, kainatı yaratdığına, dünyamızda olan hər bir şeyin allah tərəfindən yaradıldığını alqışlayır. Şairin fikrincə istər təbiət, istərsə də kainat bir gün məhvə uğrayacaq, yalnız allah əbədi və sonsuzdur.

**İstifadə edilmiş ədəbiyyat**


1. Məmmədov X. XIX əsr Azərbaycan ədəbiyyatı, Bakı: CBS, 2006, 212 s.
2. Məmmədov X. Köhnə dünyanın sonuncu, yeni dünyanın birinci şairi // Seyid Əzim Şirvani. Seçilmiş əsərləri, 3 cilddə, I c., Bakı: Avrasiya Presss, 2005, 400 s.
3. Şirvani Seyid Əzim. Seçilmiş əsərləri, I c., Bakı: Azərnəşr, 1950, 384 s.
4. Şirvani Seyid Əzim. Seçilmiş əsərləri, I c., Bakı: AMEA, 1967, 739 s.
5. Şirvani Seyid Əzim. Seçilmiş əsərləri, II c., Bakı: AMEA, 1969, 400 s.
6. http://www. anl.az/down/meqale/turkustan/2018
7. https://faikalekperov.wordpress.com/2021yanin-birinci-sairi/



**Açar sözlər:** Seyid Əzim Şirvani, fəlsəfi baxış, din, satira, mənzum hekayə, həcv
**Keywords:** Sayyid Azim Shirvani, philosophical view, religion, satire, verse story, hajw
**Ключевое слово:** Сеид Азим Ширвани, философский взгляд, религия, сатира, притча, хадж


**Xülasə**


Dahi Azərbaycan şairi və mütəfəkkiri Seyid Əzim Şirvani Azərbaycan ədəbiyyatı tarixində misilsiz xidmətləri olan şairlər sırasındadır. Şair ömrünün böyük bir qismini Azərbaycan ədəbiyyatının inkişafına həsr etmiş, dahiyanə poeziya nümunələrini ərsəyə gətirmişdir. Seyid Əzim Şirvani ədəbiyyatımızda hər zaman elmilik, təlim-tərbiyə, əxlaqi dəyərlər, əqidə, mərdlik, dürüstlük və dözümlülük nümunəsi olmuşdur. Şirvani yaradıcılığı bizi doğru yola istiqamətləndirmiş, vətənimizi, dinimizi, dilimizi qorumağı, bu fani dünyada halallıqla ömür sürməyin vacibliyini bəyan etmişdir. Şair ilə oxucularını uzun əsrlərə söykənən zaman kəsiyi ayrı salsa da onun dini-fəlsəfi görüşləri hər zaman oxucu kütləsini riqqətə gətirmiş, onların mənəvi dünyasına işıq saçmışdır. Seyid Əzim Şirvani dünyasında hər şey çox rəngarəng, saf və pakdır, haqsızlığa yer yoxdur. Biz bu dərinlikləri duya bilsək, həm özümüz, həmçinin cəmiyyətimiz üçün çox şeylər əldə etmiş olarıq. Şirvaninin zəngin ədəbi-bədii irsi, dini-fəlsəfi baxışları təkcə Azərbaycan ədəbiyyatında deyil, bir çox Yaxın Şərq ölkələrində mədəniyyətin, milli ədəbiyyatın, poeziyanın, fəlsəfi və estetik düşüncənin yaranmasında və inkişafında xüsusi rol oynamışdır.


## RELIGIOUS AND PHILOSOPHICAL VIEWS OF SEYID AZIM SHIRVANI

**Summary**


The great Azerbaijani poet and thinker Seyid Azim Shirvani is among the poets who have outstanding merits in the history of Azerbaijani literature. The poet devoted a large part of his life to the development of Azerbaijani literature and created examples of genius poetry. Seyid Azim Shirvani has always been an example of science, education, moral values, convictions, courage, honesty and tolerance in our literature. Shirvani's creativity guided us to the right path, declared the importance of protecting our homeland, religion, language and living a life in this

mortal world. Although the time span between the poet and his readers was based on long centuries, his religious and philosophical views have always touched the reading public and shed light on their spiritual world. In the world of Seyid Azim Shirvani, everything is very colorful and pure, there is no place for injustice. If we can feel these depths, we will achieve a lot both for ourselves and for our society. Shirvani's rich literary and artistic heritage, religious and philosophical views played a special role in the creation and development of culture, national literature, poetry, philosophical and aesthetic thought not only in Azerbaijani literature, but also in many countries of the Middle East.

**РЕЛИГИОЗНО-ФИЛОСОФСКИЕ ВЗГЛЯДЫ СЕИДА АЗИМА ШИРВАНИ**

**Резюме**

Гениальный азербайджанский поэт и мыслитель Сейид Азим Ширвани входит в число поэтов, имеющих беспрецедентные заслуги в истории азербайджанской литературы. Большую часть своей жизни поэт посвятил развитию азербайджанской литературы, создал гениальные образцы поэзии. Сеид Азим Ширвани в нашей литературе всегда был примером воспитания, нравственных ценностей, убеждений, мужества, честности и терпимости. Творчество Ширвани направило нас на правильный путь, заявило о важности сохранения нашей Родины, религии, языка, честной жизни в этом смертном мире. Его религиозно-философские взгляды всегда привлекали внимание читателей, проливали свет на их духовный мир. В мире Сейида Азима Ширвани все очень красочно и чисто, нет места несправедливости. Если бы мы могли слышать эти глубины, мы бы многого достигли как для себя, так и для нашего общества. Богатое литературно-художественное наследие, религиозно-философские взгляды Ширвани сыграли особую роль в становлении и развитии культуры, национальной литературы, поэзии, философской и эстетической мысли не только в азербайджанской литературе, но и во многих странах Ближнего Востока.

**Rəyçi:** Filologiya üzrə fəlsəfə doktoru Kərimulla Zəbulla oğlu Məmmədzadə